# Zəfər İlham Əliyevin yenilməz iradəsinin və sərkərdəlik məharətinin nəticəsidir

**Noyabrın 5-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri bildirib ki, gündəliyin birinci məsələsi 8 Noyabr Zəfər Günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı ilə bağlıdır.**





8 noyabr Zəfərinin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz iradəsinin və böyük sərkərdəlik məharətinin, Silahlı Qüvvələrimizin döyüş əzminin və peşəkarlığının, "dəmir yumruğ"a çevrilmiş milli birliyimizin nəticəsi olduğunu deyən Sahibə Qafarovanın sözlərinə görə. Azərbaycan BMT-nin və digər beynəlxalq təşkilatların müvafiq sənədlərinin icrasını öz gücü ilə təmin edərək, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini dəyişib. Spiker diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin dediyi bu sözlər bütün xalqımızın ürəyindən xəbər verir: "Biz xoşbəxt nəsilik ki, bu şərəfli missiya bizim üzərimizə düşüb. Xoşbəxt nəsilik ki, biz bu tarixi hadisənin həm şahidləriyik, həm də iştirakçılarıyıq. Bizdən sonra gələn nəsillər həmişə bu şanlı tarixlə fəxr edəcəklər".

Milli Məclisin Sədri qeyd edib ki, bu gün Qarabağ və Şərqi Zəngəzur öz həyatının yeni dövrünü - bərpa və quruculuq dövrünü yaşayır. Vandalların viran qoyduğu yaşayış məntəqələri bərpa olunur, infrastruktur yenidən yaradılır, hava limanları, yollar, körpülər, tunellər, digər obyektlər inşa olunur, məcburi köçkünlər ata-baba yurdlarına qaytarılır. Spiker xüsusi vurğulayıb ki, dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva vaxtaşırı bölgəyə səfərlər edir, aparılan işlərə gündəlik diqqət göstərir və nəzarət edirlər.

Diqqətə çatdırılıb ki, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması iki ölkə arasında münasibətləri normallaşdırmaq üçün sülh danışıqlarına başlamağa şərait yaradıb: "Biz Ermənistan Respublikasını danışıqlar prosesində sülh prosesini poza bilən hərəkətlərdən çəkinməyə çağırırıq. Biz əminik ki, Ermənistan tərəfindən məsuliyyətli münasibət nümayiş etdirilərsə, iki dövlət arasında sülh müqaviləsi qısa müddətdə imzalana bilər".

Sahibə Qafarova xalqımıza Zəfər sevincini yaşadan, onun ədalətə və özünə inamını qaytaran Prezident İlham Əliyevə, qəhrəman əsgər və zabitlərimizə Milli Məclis adından və öz adından minnətdarlığını bildirib, onları ürəkdən təbrik edib.

Spiker təklif edib ki, Zəfər Günü münasibətilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq, Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. Parlament spikerinin bu təklifi alqışlarla qarşılanıb.

Milli Məclisin Sədri bildirib ki, təəssüf ki, müharibə itkisiz olmur. Biz də bu müharibədə şəhidlər vermişik. Allah şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə möhkəm cansağlığı, yaralı hərbçilərimizə isə şəfa diləyirik.

Sonra parlamentin Sədri bir məlumatı da deputatların nəzərinə çatdıraraq bildirib ki, noyabrın 4-də Milli Məclisdə Vətən müharibəsində qələbəmizə həsr edilən "Zəfər Guşəsi"nin açılışı olub. Tədbirdə Milli Məclisin rəhbərliyi və Milli Məclisdə dövlət qulluğuna qəbul edilmiş 4 qazimiz və şəhid anası iştirak edib.

Sonra deputat Ramil Həsən 8 Noyabr Zəfər Günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatının mətnini oxuyub.

Bəyanat deputatlar tərəfindən alqışlarla qarşılanıb. İclasda Zəfər Gününə həsr olunmuş və Milli Məclis Aparatı tərəfindən hazırlanmış videoçarx da nümayiş etdirilib.

Zəfər Günü ilə əlaqədar Milli Məclisin Bəyanatı ilə bağlı müzakirələrdə çıxış edənlər Vətən müharibəsində Qələbəmizin ikinci ildönümü ilə bağlı təbriklərini çatdırıblar. Deputatlar Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Ordusu və xalqı ilə birlikdə torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası sahəsində tarixi bir missiyanı yerinə yetirdiyini vurğulayıblar. Bu əlamətdar günün ölkə tarixinin ən şərəfli və parlaq səhifələrindən biri olduğunu qeyd ediblər. Deputatlar hazırda Qarabağda uğurla həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işlərini təqdir ediblər.

Çıxışlarda Milli Məclisin Zəfər Günü ilə bağlı Bəyanatında hər bir deputatın arzu və istəklərinin əks olunduğu bildirilib və Bəyanat səsə qoyularaq qəbul edilib (Bəyanatın mətni qəzetin bugünkü nömrəsində dərc edilib).

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, qanun layihəsi ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim olunub. Qeyd edilib ki, dövlət-özəl tərəfdaşlığı dövlətin özəl sektor resurslarından və təcrübəsindən istifadə edərək, dövlət infrastrukturunun və ya xidmətlərinin satınalmasını həyata keçirmək mexanizmidir. Bu mexanizm dövlətin özəl sektorla tərəfdaşlıq edərək yeni həllərin təşviqinə və maliyyə vəsaitlərinin cəlb olunmasına kömək edir. Qanun layihəsinin hazırlanması ölkə Prezidenti tərəfindən 2022-ci ilin iyul ayında təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda da hədəf olaraq öz əksini tapıb.

Qeyd edilib ki, qanun layihəsi 8 fəsil, 40 maddədən ibarətdir. Onun hazırlanması zamanı beynəlxalq təcrübədən istifadə olunub. Qanunun hazırlanmasında məqsəd dövlət vəsaitlərinin istifadəsində səmərəliliyin artırılması, dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, onlara əlçatanlığın artırılması, iqtisadiyyatın ayrı-ayrı sahələrinin davamlı inkişafının stimullaşdırılması, iqtisadiyyata cəlb olunmuş özəl investisiyaların, o cümlədən birbaşa xarici investisiyaların həcminin artırılması, sosial-iqtisadi və biznes yönümlü infrastrukturun qurulması və idarə edilməsi, yeni iş yerlərinin yaradılması və rəqabət qabiliyyətli məhsul ixracının artırılmasıdır.

Bildirilib ki, qanuna əsasən, dövlət-özəl tərəfdaşlığı layihəsində dövlətin iştirak forması səlahiyyətli orqan tərəfindən dövlət-özəl tərəfdaşlığı layihəsinin texniki-iqtisadi əsaslandırılmasına əsasən müəyyən ediləcək. Dövlət-özəl tərəfdaşlığı ilə bağlı dövlətin öhdəliyinin yuxarı həddi hər layihə üzrə səlahiyyətli orqan tərəfindən müəyyən olunacaq. Dövlət-özəl tərəfdaşlığı layihələrinin siyahısı qüvvədə olan strateji sənədlər əsasında hazırlanacaq və təsdiq edildikdən sonra hər il internet səhifəsində yerləşdiriləcək və mediada dərc ediləcək. Layihələr əhəmiyyətlilik, səmərəlilik və maliyyə riskləri kimi meyarlar nəzərə alınmaqla seçiləcək. Layihələrin maksimum müddəti 49 il olacaq. Səlahiyyətli orqan layihənin həyata keçirilməsində iştirak etmək istəyən şəxslərin niyyətləri əsasında və ya öz təşəbbüsü ilə layihəni müsabiqəyə hazırlayacaq, onu qiymətləndirəcək, dövlət tərəfdaş və özəl tərəfdaş arasında müqavilə bağlanmasını təşkil edəcək.

Layihə ilə bağlı müzakirələrdə komitə sədrləri Siyavuş Novruzov, Ziyafət Əsgərov, deputatlardan Əli Məsimli, Azay Quliyev, Vüqar Bayramov, Etibar Əliyev, Aydın Mirzəzadə, Vahid Əhmədov fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Parlamentin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Bildirib ki, adıçəkilən qanunun təhsil sahəsində dövlətin vəzifələrinə həsr olunmuş 29-cu maddəsinə əlavələr təklif olunur. Əlavələrə əsasən, ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, habelə orta ixtisas təhsil müəssisələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) qaydalarının müəyyən edilməsi təhsil sahəsində dövlətin vəzifələri kimi təsbit edilir.

Digər düzəlişlərə əsasən, təhsilalanların hüquqları ilə bağlı 32.3.7.-ci maddədə "və ixtisasını dəyişmək" sözləri "ixtisasını və təhsilalma formasını dəyişmək, təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunmaq" sözləri ilə əvəz edilir. 32.3.12.-ci maddədə isə "dayandırmaq" sözündən sonra akademik məzuniyyət götürmək sözləri əlavə edilir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Layihəyə əsasən, məcəlləyə inzibati məsuliyyətə cəlb etmə və inzibati cərimələrin ödənilməsi ilə bağlı məsələlərin təkmilləşdirilməsi məqsədilə bir sıra yeni müddəaların əlavə olunması və mövcud müddəalarda dəyişiklik edilməsi təklif olunur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Deputat Nizami Səfərovun təqdimatından sonra "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi də ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmovun təqdimatından sonra Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri ikinci oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini təqdim edərək, məsələnin İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun yanında işçi qrupunun yaradılması ilə bağlı olduğunu bildirib.

Zahid Oruc İnsan hüquqları komitəsinin sənəd barədə rəyini səsləndirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında", "Maliyyə-sənaye qrupları haqqında" və "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə" və "Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikası medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələri qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***